# Müasir tariximizi qızıl hərflərlə yazan lider

**Cümhuriyyət salnaməsinin şanlı səhifələrindən biri olan Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq olunduğu 22 noyabr 1918-ci ildəki tarixi ulu öndərimiz Heydər Əliyev 11 noyabr 2000-ci ildə ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair sərəncam imzalamış və bu sənəd əsasında respublikamızda bu bayram hər il yüksək səviyyədə keçirilir.**

Bildiyimiz kimi, təcavüzkarlıq xislətindən əl çəkməyən Ermənistanın cəbhəyanı rayonlarda və qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan dinc əhalimizi hədəf seçməsinə cavab olaraq 27 sentyabr 2020-ci il tarixdə Ali Baş Komandanımız cənab İlham Əliyevin başçılığı ilə müzəffər ordumuzun başladığı çevik, qətiyyətli, müasir hərbi texnika və milli birliyimiz əsasında həyata keçirilmiş əks-həmlə əməliyyatları xalqımızın qürur yerinə çevrilmişdir. Tarixdən hamıya məlumdur ki, uzun illərdir Azərbaycan Respublikasının ərazisinə işğalçılıq planlarını həyata keçirən mənfur, alçaq, vandal, xəyanətkar xislətli qonşumuz Ermənistan Respublikası və onun havadarları öz çirkin, haqsız siyasətlərini 90-cı illərin əvvəllərində dövlətimizə rəhbərlik edən siyasi səriştəsi olmayan "liderlər"in yarıtmaz fəaliyyətindən istifadə edib on minlərlə günahsız körpələrimizi, qadınlarımızı, qocalarımızı işgəncə ilə qırmış, bir milyondan artıq məcburi köçkün vətəndaşlarımızı öz doğma yurdlarından didərgin etməklə ərazimizin təxminən 20 faizini işğala məruz qoyaraq suverenliyimizi pozmuşdur. Xoşbəxtlikdən Azərbaycan xalqının təkidi ilə görkəmli dövlət xadimi, dahi siyasətçi ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycan xalqını bundan da ağır ola biləcək bəlalardan xilas etmiş oldu. İlk növbədə atəşkəslə bağlı 12 may 1994-cü il tarixdə imzalanmış Bişkek protokolu və 20 sentyabr 1994-cü ildə dünyaca tanınmış məşhur xarici neft şirkətləri ilə bağlanmış "Əsrin müqaviləsi" kimi tarixə düşmüş kontrakt nəticəsində ümummilli liderimiz ölkədə sabitliyin, dərin sosial-iqtisadi, hərbi, hüquqi və siyasi islahatları həyata keçirməklə ölkəmizin gücləndirilməsi ilə bağlı konkret əməli addımlar atmış oldu. Bizim respublikamız təkcə daxildə gedən hərcmərclik ilə zəifləməmişdi, həmçinin uzun illər erməni lobbisinin saxta, rüşvət və digər çirkin yollarla apardığı fəaliyyəti nəticəsində beynəlxalq tribunalarda Azərbaycanın haqq səsini heç kəs eşitmirdi. Bunun bariz nümunəsi kimi, Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrində Ermənistan hərbi-siyasi rəhbərliyinin işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz azad edilməsinə dair müddəaların yerinə yetirilməməsi və onunla bağlı erməni havadarlarının işğalçılıq siyasətinə göz yummaqla uzun illər ərzində bizə qarşı ədalətsiz mövqe nümayiş etdirmişlər. Yaşadığımız dünyada "demokratiya" sərgiləyənlərin bu cür ikili standartlarına və işğalçı Ermənistana layiqli cavabın ümummilli liderimiz Heydər Əliyevin apardığı müdrik və çoxşaxəli dərin islahatlarla əhatə olunan müdrik siyasətin layiqli davamçısı Prezident İlham Əliyev olması bir aksiomadır.

Bununla belə, son illərdə düşmən dəfələrlə təmas xəttində təxribatlara əl atıb və hər dəfə layiqli cavabını alaraq geri çəkilib. Hələ 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Respublikasının Silahlı Qüvvələri açıq döyüş əməliyyatları ilə Horadiz istiqamətindəki strateji yüksəkliklər, Lələtəpə, habelə Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndlərini geri qaytarmaqla işğaldan azad olunmuş torpaqlarımıza "Böyük Qayıdış"ın əsasını qoydu. Eləcə də 2017-ci ildə Naxçıvan MR-də aparılmış Günnüt əməliyyatı, minlərlə hektar ərazinin təmizlənməsi düşmənin orduda və xalqında ciddi ruh düşkünlüyünə, bədbinliyinə səbəb olmuşdur.

Bundan , 2020-ci ilin iyul ayında Ermənistan Tovuz rayonunda- sərhəd istiqamətində ölkəmizə hücum cəhdi, mülki və hərbi obyektləri artilleriya atəşinə tutması növbəti açıq təxribatı və xəyanətkar simasının göstəricisi idi. Təbii ki, Silahlı Qüvvələrimiz düşmənin layiqli cavabını verməklə onu yerində oturtdu. Tovuz rayonu sərhədindəki uğurlu əməliyyatlarımızda ilk növbədə məlum oldu ki, Azərbaycan xalqının milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən güclü siyasi lideri - rəhbəri var! İkinci fakt isə Azərbaycan Ordusunun generalı Polad Həşimov, eləcə də polkovnik İlqar Mirzəyevin ön xətdə, açıq döyüş zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalması onu göstərdi ki, Azərbaycanın yüksək vəzifəli hərbçiləri ön cəbhədə torpağı üçün canını fəda etməkdən çəkinmirlər.

Ermənistan Tovuz döyüşləri zamanı Rusiyanın təsir dairəsində olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dəstəyinə ümid etsə də, Prezident İlham Əliyevin apardığı uğurlu beynəlxalq siyasət nəticəsində buna nail ola bilmədi.

2020-ci ilin avqust ayında keçirilən Azərbaycan-Türkiyə birgə təlimləri ilə Ermənistana və onun bəzi havadarlarına açıq siyasi ismarıclar verildi. Lakin Ermənistan rəhbərliyinin son 2 ildə danışıqlardan imtina edərək Azərbaycana qarşı qəbuledilməz və əsassız şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal edilmiş ərazilərimizə qanunsuz olaraq köçürməsi, təlxək lideri olan Paşinyanın doğma Şuşamızın Cıdır düzündə sərxoşluq edib yallı getməsi, yüksək çinli hərbiçisinin Amerikada erməni icması qarşısında yeni ərazi işğalı ilə əlaqədar çıxış etməsi, Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejiminin "rəhbər"inin "andiçmə mərasimi"nin təşkili, "Dağlıq Qarabağ Parlamentinin" Xankəndidən Şuşa şəhərinə köçürməsi Azərbaycanı müharibəyə təhrik etməsi idi.

Yuxarıda qeyd etdiklərimdən belə qənaətə gələ bilərik ki, ərazisi işğala məruz qalmış Azərbaycanın 30 ilə yaxın müddətdə diplomatik təmkin nümayiş etdirməsi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşması, ancaq bunun müqabilində işğalçı Ermənistana ciddi beynəlxalq təzyiqin göstərilməməsi son illərdə vəziyyəti daha da gərginləşdirmişdir. BMT ilə yanaşı, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qətnamə və bəyanatlarına məhəl qoymayan Ermənistan xunta rejiminin aşkar şəkildə ərazi ilhaqı siyasəti yürütməsi, Dağlıq Qarabağa dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifi ilə razılaşmaması danışıqlar prosesini dalana dirəmişdi. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Əgər beynəlxalq ictimaiyyət qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu edəcək" cümləsi onun sözünə sahib türk sərkərdəsi və güclü Azərbaycan Ordusunun olduğunu bütün dünyaya nümayiş etdirdi və nəhayət bu haqlı mübarizə Ali Baş Komandanımızın rəhbərliyi ilə 27 sentyabr 2020-ci il tarixdə öz tarixi və suveren ərazilərində müzəffər ordumuzun cəsarəti və qətiyyəti ilə əks-hücum əməliyyatları başladı.



Müzəffər ordumuzun qanı və canı hesabına işğaldan azad olunan hər qarış torpaqlarımızın, kəndlərimizin qələbə zəfərini xalqımız Ali Baş Komandanımızın tivitindən daim eşidib daha da fərəhlənirdi. Onu da qeyd etmək istərdim ki, millətimiz işğaldan azad edilən torpaqlarımız haqqında cənab Prezidentin tivitindəki xəbərləri o qədər səbirsizliklə gözləyirdik ki, hər gün qələbə xəbərlərini eşitmək arzusunda idi. Fəxrlə demək olar ki, üçrəngli şanlı bayrağımız rəşadətli ordumuzun sayəsində işğaldan azad oluan Horadiz, Hadrut, Mincivan, Ağbənd qəsəbələrində, o cümlədən Füzuli, Zəngilan Qubadlı şəhərlərində və ən nəhayət Qarabağın mədəni-mənəvi beşiyi sayılan Şuşa şəhərində sancılması ilə Ermənistan kapitulyasiya imzalamağa məcbur oldu. Cənab Prezidentimiz bu tarixi zəfər gününü hamımızın müqəddəs hesab etdiyi Şəhidlər Xiyabanında elan etdikdən sonra 10 noyabr 2020-ci il tarixdən Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistan baş naziri Ermənistan və Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması barədə üçtərəfli birgə bəyanat imzaladılar. Bununla da Ermənistanın tarixi torpaqlarımız olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qeyd-şərtsiz çıxması, o cümlədən Azərbaycan Respublikası Prezidentinin təkidli tələbi ilə gələcəkdə atəşkəsə nəzarət ilə bağlı Rusiya və Türkiyənin birgə iştirakı ilə Monitorinq mərkəzini yaradılması, həmçinin ermənilərin Xankəndinə maneəsiz gediş-gəlişinin təmin edilməsi üçün Laçın dəhlizindən istifadə etməsi əvəzində Ermənistanın Mehri rayonu ərazisindən Naxçıvan MR-ə birbaşa nəqliyyat və kommunikasiya xətlərinin yenidən qurulub bərpa edilməsi ilə bağlı mühüm tələblər Ermənistanın dabanyalayan liderinə qəbul etdirildi.

Bu şanlı qələbəmiz haqqında çox danışa bilərik, lakin fikirlərimi Prezidentimizin dediyi mühüm ifadələr ilə bitirmək istəyirəm: "Ümid edirəm ki, indi artıq biz Dağlıq Qarabağ münaqişəsi cümləsi eşitməyəcəyik!, biz təkcə bölgəmizi deyil, bütün dünyanı erməni bəlasından qurtarmış olduq!, o cümlədən biz erməni vandalları tərəfindən dağıdılan bütün tarixi-mədəni abidələrimizi bərpa etməklə yanaşı, yandırılıb viran qoyulmuş kəndlərimizi və şəhərlərimizi müasir standartlara uyğun olaraq planlı şəkildə quraraq oradan məcburi köçkün düşmüş vətəndaşlarımızı yenidən öz ata-baba yurdlarında rahat yaşamalarını təmin edəcəyik!..". Qarşıda görüləsi işlərimiz çoxdur. Arzu edirəm ki, artıq hüquqi müstəvidə həll olunan məsələlərimiz işğaldan azad olunmuş suveren ərazilərimizdə yerləşəcək məhkəmələrimizdə Azərbaycan bayrağı və gerbi altında vətəndaşlarımızın iştirakı ilə baxılsın.

**Günay AXUNDOVA**
**Yasamal Rayon Məhkəməsinin hakimi.**